# Ali təhsil müəssisələrinin, 11 illik və 9 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin (subbakalavrların) nəzərinə!

### Qabiliyyət imtahanlarına qeydiyyat başlanır

2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin (V ixtisas qrupu), tam (11 illik) orta və ümumi (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları (XQTİ) üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlərin və subbakalavrların elektron qeydiyyatı başlanır.

Mayın 15-dən 29-dək aşağıdakı istiqamətlərə aid komissiyalar üzrə abituriyentlərin (subbakalavrların) qeydiyyatı aparılacaq:

- **teatr, kino və xoreoqrafiya sənəti;**
- **musiqi sənəti;**
- **təsviri sənət;**
- **bədən tərbiyəsi və idman.**

Abituriyentlər ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yalnız 1 istiqaməti üzrə ən çox 4 komissiyadan qeydiyyatdan keçə bilərlər. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər isə 1 istiqamətə aid ən çoxu 6 komissiya üzrə qeydiyyatdan keçə bilərlər. Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər bir istiqamətə aid ən çoxu 6 komissiya üzrə qeydiyyatdan keçə bilərlər.

**Diqqət!**

- Qəbul (buraxılış) imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) üzrə imtahanın nəticəsindən asılı olmayaraq qeydiyyatdan keçə bilərlər. Lakin bu imtahandan “qeyri-məqbul” alan abituriyentlərin nəzərinə çatdırırıq ki, onlar 30 iyun tarixində keçiriləcək Azərbaycan dili imtahanının ikinci cəhdində “məqbul” aldıqları təqdirdə müsabiqəyə buraxılırlar.
- Aprelin 21-də və mayın 5-də keçirilmiş qəbul (buraxılış) imtahanlarında iştirak etmiş abituriyentlər nəticələr elan olunduqdan sonra müsabiqə şərtlərini ödədikləri halda qeydiyyatdan keçə biləcəklər.

Qeyd edək ki:

- xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qeydiyyatdan qəbul (buraxılış) imtahanından **ali təhsil** müəssisələrinin V ixtisas qrupu üzrə 60 bal (rejissorluq ixtisası üzrə 120 bal, xoreoqrafiya ixtisası üzrə 30 bal) toplayan abituriyentlər keçə bilərlər. Qabiliyyət imtahanının nəticəsi bal və ya məqbul/qeyri-məqbulla qiymətləndirilir;
- tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə qəbul (buraxılış) imtahanından topladıqları ümumi balı 40 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan abituriyentlər qeydiyyatdan keçərək

qabiliyyət imtahanı verməlidirlər. Qabiliyyət imtahanının nəticəsi məqbul/qeyri-məqbulla qiymətləndirilir. 5 və daha yüksək bal (10 ballıq şkala üzrə) "məqbul" hesab edilir. "Məqbul" qiymət alan abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində iştirak etmək hüququ qazanırlar. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kollecinin ixtisaslarının müsabiqəsində yalnız imtahan nəticəsi 7 və daha yüksək bal olan abituriyentlər iştirak edə biləcəklər;

- ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə qəbul (buraxılış) imtahanından topladıqları ümumi balı 50 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan abituriyentlər qeydiyyatdan keçərək qabiliyyət imtahanı verməlidirlər. Xoreoqrafiya sənəti və Rəqs müəllimliyi ixtisasına qəbul olmaq istəyən abituriyentlərin üzrə topladıqları ümumi bal 30 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olmalıdır. Qabiliyyət imtahanının nəticəsi məqbul/qeyri-məqbulla qiymətləndirilir. 5 və daha yüksək bal (10 ballıq şkala üzrə) "məqbul" qiymət hesab edilir. "Məqbul" qiymət alan abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində iştirak etmək hüququ qazanırlar. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kollecinin ixtisaslarının müsabiqəsində yalnız imtahan nəticəsi 7 və daha yüksək bal olan abituriyentlər iştirak edə biləcəklər.

Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslara qeydiyyat üçün verilən linkdən http://eservices.dim.gov.az/qabiliyyet istifadə edə bilərlər. Bunun üçün abituriyent şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməli və qeydiyyatdan keçmək istədiyi komissiyaların sayından asılı olaraq tələb olunan məbləği *(təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin göstərdiyi xidmətlərin haqqı barədə məlumat əlavədəki cədvəldə verilmişdir)* şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

**Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin göstərdiyi xidmətlərin haqqı barədə məlumat:**

| Xidmətlərin adı | Ölçü vahidi | Tarif | Azərbaycan Respublikasının vətəndaşları üçün güzəştli tarif* |
|---|---|---|---|
| Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən (o cümlədən Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq") ixtisaslarına tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı | 1 iştirak üçün | 40 | 30 |
| Orta təhsil təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı | 1 iştirak üçün | 40 | 20 |

* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2022-ci il tarixli 270 nömrəli qərarına əsasən Azərbaycan Respublikasının vətəndaşları üçün edilən güzəştlər nəzərə alınmaqla müəyyənləşmiş **güzəştli tarif**.

**QEYD 1: "Şəxsi kabinet"inizin hesabına vəsait köçürərkən iştirak edəcəyiniz imtahanların və bu imtahanlar üçün müəyyən edilmiş qiymətləri nəzərə alın. "Şəxsi kabinet"inizin hesabına köçürdüyünüz istifadə edilməmiş vəsait qəbul kampaniyası bitdikdən sonra müraciətiniz əsasında təqdim etdiyiniz bank hesabınıza qaytarıla bilər, digər şəxsi kabinetlərə köçürülə bilər və ya digər imtahanlara qeydiyyat zamanı istifadə edilə bilər.**

**QEYD 2: Ali təhsil və orta ixtisas təhsili müəssisələrini bitirən bütün abituriyentlər üçün ali təhsil müəssisələrinə qəbul imtahanları həmin abituriyentlərin hesabına həyata keçirilir.**

**QEYD 3: Azərbaycan Respublikasının vətəndaşı olmayan abituriyentlər üçün qəbul imtahanının I və II mərhələsi (bütün cəhdlər üzrə) onların öz hesabına həyata keçirilir (Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanlarında iştirakı istisna olmaqla).**

“Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (ödənişsiz) olacaq. “Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına dəyişikliyə əsasən aşağıdakı 5 kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanlarında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

**Musiqi sənəti** istiqamətinin komissiyaları üzrə qeydiyyatdan keçmək istəyən abituriyentlər (ali təhsil pilləsi üzrə 25, 26, 28, 95 və 96-cı, 11 illik üzrə 4501, 4504, 4505, 4506, 4507, 4701, 4704, 4801, 4706, 4101, 4106-cı, 9 illik üzrə 223, 224, 225, 227, 228, 323, 324, 327, 423, 424, 623, 624, 627 və 723-cü komissiyalar istisna olmaqla) musiqi təhsili haqqında sənədə malik olmalıdırlar. Musiqi sənəti istiqaməti üzrə bu il ilk öncə ixtisas imtahanları, daha sonra komissiyalar üzrə müvafiq nəzəriyyə fənləri üzrə test imtahanı keçiriləcək. Test imtahanı bir dəfə mərkəzləşdirilmiş şəkildə təşkil ediləcək.
“Musiqi müəllimliyi” ixtisası üzrə bu il ixtisas imtahanları bütün regionlar üzrə vahid komissiya (32-ci komissiya) altında mərkəzləşmiş şəkildə keçiriləcək. Abituriyentlər yaşadıqları regiona ən yaxın regionda təşkil ediləcək qabiliyyət imtahanında iştirak edəcəklər.
Musiqi sənəti istiqamətinin ali təhsil pilləsinə aid QİK-lər üzrə tələb olunan proqram formasında müvafiq komissiyalara uyğun ifa olunmalı proqram nümunəsi yerləşdirilmişdir. Abituriyentlər komissiyaya nümunədə təqdim edilmiş proqrama uyğun əsərlər təqdim etməlidirlər.

**Diqqət! Abituriyentlərin musiqi təhsili haqqında məlumatı (təhsil haqqında sənədin seriya və nömrəsi, bitirdiyi təhsil müəssisəsinin adı, bitirdiyi ixtisas və ya təhsil aldığı musiqi aləti) DİM tərəfindən yaradılan “Musiqi məktəbi-məzun” Dövlət Elektron Məlumat Sistemindən götürülür. Əgər abituriyent haqqında məlumat bu sistemdə yoxdursa, həmin abituriyent musiqi ixtisası üzrə bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir.**

Musiqi üzrə xaricdə təhsil almış vətəndaşlar DİM-ə müraciət etməlidirlər. Bunun üçün həmin abituriyentlər musiqi təhsili haqqında sənədin əslini və surətini, şəxsiyyəti təsdiq edən sənədi DİM-ə şəxsən təqdim etməlidirlər.

Musiqi sənəti istiqamətinin ixtisasları üzrə orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyentlər yalnız **ixtisas** fənnindən qabiliyyət imtahanında iştirak edirlər.

**Xoreoqrafiya sənəti** ixtisası üzrə qeydiyyatdan keçən abituriyentlər qabiliyyət imtahanına gələrkən komissiyaya çəkisi, boyu, onurğa sütunu, ürəyi, görmə qabiliyyəti haqqında tibbi arayış təqdim etməlidir. Abituriyentlər ixtisas üzrə fiziki göstəriciləri və sağlamlıqları barədə qoyulan konkret tələblərə cavab verməlidir. Ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin teatr, kino və xoreoqrafiya sənəti istiqamətinin "Xoreoqrafiya sənəti" ixtisasına yalnız bu ixtisas üzrə təhsili olan şəxslər qeydiyyatdan keçə bilərlər. İxtisas üzrə təhsil tələbi "Musiqi məktəbi-məzun" Dövlət Elektron Məlumat Sistemindən götürülür. Əgər abituriyent haqqında məlumat bu sistemdə yoxdursa, həmin abituriyent "Xoreoqrafiya sənəti" ixtisası üzrə bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir.

**Teatr, kino və xoreoqrafiya sənəti istiqamətinin** ali təhsil pilləsi üzrə **"Aktyor sənəti", "Operator sənəti", Xoreoqrafiya sənəti"** ixtisaslarına qiyabi şöbə açılmışdır. Bu ixtisaslar üzrə qiyabi şöbədə təhsil almaq üçün abituriyentlər ixtisaslar üzrə aşağıdakı şərtləri ödəməlidir:

- **"Aktyor sənəti"** (qiyabi). Bu ixtisas üzrə qiyabi yerlərə yalnız bölgə teatrlarında (Bakı şəhəri istisna olmaqla) hal - hazırda fəaliyyət göstərən, iş stajı əmək kitabçasına əsasən 5 ildən az olmayan, lakin peşə üzrə bakalavr təhsili olmayan aktyorlar sənəd verə bilər. "Aktyor sənəti" ixtisasının qiyabi şöbəsinə qəbulda 25 yaş məhdudiyyəti tətbiq edilmir.

- **"Operator sənəti**" (qiyabi). Bu ixtisas üzrə qiyabi yerlərə yalnız hal - hazırda televiziya kanallarında fealiyyət göstərən, iş stajı əmək kitabçasına əsasən 3 ildən az olmayan, lakin peşə üzrə bakalavr təhsili olmayan operatorlar sənəd verə bilər.

- **"Xoreoqrafiya sənəti"** (qiyabi). Bu ixtisas üzrə qiyabi yerlərə yalnız hal – hazırda dövlət müəssisələrində ixtisas üzrə fəaliyyət göstərən, iş stajı əmək kitabçasına əsasən 5 ildən az olmayan abituriyentlər sənəd verə bilər.

Bu ixtisaslar üzrə qiyabi şöbədə təhsil almaq istəyən abituriyentlər müvafiq ixtisaslar üzrə qəbul aparan təhsil müəssisələrinə əmək kitabçalarını, şəxsiyyət vəsiqələrini təqdim etməklə qiyabi şöbədə təhsil ala bilmək üçün ixtisas uyğunuluğuna dair arayış almalıdırlar. Arayışı DİM-ə təqdim etdikdən sonra öz ixtisasları üzrə qeydiyyatdan keçə biləcəklər.

**Memarlıq**, **jurnalistika** və **islamşünaslıq** ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər qabiliyyət imtahanında iştirak etmək üçün qeydiyyat tarixləri haqqında məlumatı müvafiq qrup imtahanlarının nəticələri elan olunduqdan sonra DİM-in internet saytından əldə edə bilərlər.

**Bədən tərbiyəsi və idman istiqaməti** üzrə qeydiyyatdan keçmiş abituriyentlər qabiliyyət imtahanına gələrkən hər bir abituriyent komissiyaya sağlamlıq haqqında - 086U formalı tibbi

arayış təqdim etməlidir (peşəyə yararlılıq haqqında həkim rəyi hissəsində “yararlıdır və ya sağlamdır” olmalıdır).

**Subbakalavrlar** aldıqları orta ixtisas təhsilinə uyğun olan qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçə bilərlər. Xatırladaq ki, qeydiyyatdan keçən zaman ixtisaslar üzrə uyğun komissiyalar proqram təminatı vasitəsilə subbakalavra təqdim edilir. Subbakalavrlar 28 mayadək ərizələrini təsdiq etməlidirlər. Belə ki, ali təhsil müəssisələrinin və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin elektron ərizələrinin qeydiyyatı 29 may saat 23:59-dək davam edəcəkdir. Subbakalavrlar qabiliyyət imtahanında iştirak üçün qeyd olunan tarixədək müvafiq qabiliyyət komissiyası üzrə qeydiyyatdan da keçməlidirlər. Təhsil məlumatları tam olmayan, XQTİ-lər üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən subbakalavrlara tələb olunan məlumatların 27 may tarixindən gec olmayaraq orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirilməsini diqqətdə saxlamaları tövsiyə olunur.

***Qabiliyyət imtahanlarının iyun-avqust aylarında keçirilməsi nəzərdə tutulur. Abituriyentlərə/subbakalavrlara “Qabiliyyət imtahanına buraxılış vərəqəsi”ni çap edə biləcəkləri tarixlər haqqında məlumat DİM-in internet səhifəsində veriləcəkdir. “Qabiliyyət imtahanına buraxılış vərəqəsi”ndə qabiliyyət imtahanlarının tarixi, keçiriləcəyi ünvan və vaxt göstəriləcəkdir.***

Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar 2024-cü ildə nəşr edilən xüsusi qabiliyyət imtahanlarının istiqamətləri üzrə **“Abituriyent” jurnalının xüsusi buraxılışlarında** verilir. Burada ali təhsilin bakalavriat və magistratura, tam (11 illik) və ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər və digər faydalı məlumatlar əksini tapır.



## 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri

| İxtisasın adı | Minimal bal | II mərhələ üzrə minimal bal | Qabiliyyət imtahanının yekun nəticəsi |
|---|---|---|---|
| **I ixtisas qrupu**<br>*(RK altqrupu)* | | | |
| Memarlıq | 200 | - | məqbul (6 bal) |
| **III ixtisas qrupu**<br>*(DT altqrupu)* | | | |
| İslamşünaslıq | 150 | 50 | məqbul |
| Jurnalistika | 200 | 100 | məqbul (5 bal) |
| **V ixtisas qrupu** | | | |
| Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi<br>Musiqi müəllimliyi<br>Təsviri incəsənət müəllimliyi<br>Adaptiv bədən tərbiyəsi<br>Kütləvi sağlamlaşdırıcı idman<br>Ümumi fiziki hazırlıq | 60 | - | məqbul<br>(6 bal) |
| Rejissorluq | 120 | - | 6 (bal) |
| Məşqçilik (sahələr üzrə)<br>Dizayn (sahələr üzrə)<br>Dekorativ-tətbiqi sənət (sahələr üzrə)<br>İnstrumental ifaçılıq (sahələr üzrə)<br>Vokal sənəti (sahələr üzrə)<br>Dirijorluq (sahələr üzrə)<br>Bəstəkarlıq<br>Musiqişünaslıq<br>Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)<br>Aktyor sənəti<br>Operator sənəti<br>Rəngkarlıq<br>Qrafika<br>Heykəltəraşlıq | 60 | - | 6 (bal) |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | 30 | - | |

## Ali təhsilin bakalavriat səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisasların komissiyalar üzrə bölgüsü və qeydiyyat zamanı nəzərə alınan şərtlər

***2 nömrəli əlavə***

| İstiqamətlər üzrə ixtisaslar | Komissiyalar | | Qabiliyyət imtahanları | Qiy-mətlən-dirmə | Qeydiyyat zamanı nəzərə alınan minimum şərtlər |
|---|---|---|---|---|---|
| | ad | kod | | | |
| **TƏSVİRİ SƏNƏT** | | | | | |
| *Rəngkarlıq* | **Rəngkarlıq** | 10 | **1-ci imtahan** - rəsm<br>**2-ci imtahan** - rəngkarlıq | bal | |
| *Qrafika* | **Qrafika** | 11 | | | |
| *Dekorativ- tətbiqi sənət(sahələr üzrə)* | **Dekorativ sənət** | 15 | | | |
| *Rəngkarlıq* | **Rəngkarlıq (NDU)** | 67 | | | |
| *Heykəltəraşlıq* | **Heykəltəraşlıq** | 12 | **1-ci imtahan** - rəsm<br>**2-ci imtahan** - yapma | | |
| *Dizayn(sahələr üzrə)* | **Dizayn** | 14 | **imtahan** - rəsm | | |
| *Təsviri incəsənət müəllimliyi* | **Təsviri incəsənət müəllimliyi** | 13 | **imtahan** - rəsm | məqbul | |
| *Memarlıq* | **Memarlıq** | 40 | **imtahan** - rəsm | | |
| **MUSİQİ SƏNƏTİ** | | | | | |
| *İnstrumental ifaçılıq: simli: violin;*<br>*nəfəs: fleyta, klarnet, truba, saksofon* | **Orkestr alətləri (BMA)** | 18 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | bal | Uyğun alət üzrə 11 illik və ya kollec musiqi təhsili |
| *İnstrumental ifaçılıq: simli: viola, violonçel, kontrabas, arfa* | **Orkestr alətləri (BMA)** | 19 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 7 illik musiqi təhsili |
| *nəfəs: trombon, qoboy, faqot, tuba, valtorna və zərb alətləri* | **Orkestr alətləri (BMA)** | 19 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *İnstrumental ifaçılıq: fortepiano, orqan, klavesin* | **Fortepiano, orqan, klavesin (BMA)** | 20 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | Uyğun alət üzrə 11 illik və ya kollec musiqi təhsili |
| *İnstrumental ifaçılıq: tar, kamança, qanun* | **Xalq çalğı alətləri (AMK)** | 22 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio** | | Uyğun alət üzrə 11 illik və ya kollec musiqi təhsili |
| *İnstrumental ifaçılıq: tar, kamança, qanun, nağara, qarmon, saz, zurna, balaban*[1] | **Xalq çalğı alətləri** | 23 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *Vokal sənəti (sahələr üzrə)* | **Akademik vokal (BMA)** | 24 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | 5 illik musiqi təhsili (istənilən alət və musiqi ixtisası) |
| *Vokal sənəti* | **Xanəndəlik** | 25 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | |

[1] 23-cü komissiyada saz, balaban alətləri üzrə imtahan verərək müsabiqəyə buraxılmış abituriyentlər ixtisas seçimində Azərbaycan Milli Konservatoriyasının İnstrumental ifaçılıq (xalq çalğı alətləri üzrə) ixtisası üzrə də müsabiqədə iştirak edə biləcəklər.

| İstiqamətlər üzrə ixtisaslar | Komissiyalar | | Qabiliyyət imtahanları | Qiy-mətlən-dirmə | Qeydiyyat zamanı nəzərə alınan minimum şərtlər |
|---|---|---|---|---|---|
| | ad | kod | | | |
| *(sahələr üzrə)* | | | | | |
| *Populyar musiqi və caz ifaçılığı (vokal)* | **Populyar musiqi və caz ifaçılığı (vokal)** | 26 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | |
| *Dirijorluq (sahələr üzrə)* | **Dirijorluq** | 27 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | İstənilən ixtisas üzrə ən azı 11 illik və ya kollec musiqi təhsili |
| *Vokal sənəti (sahələr üzrə)* | **Milli vokal** | 28 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | |
| *Bəstəkarlıq* | **Bəstəkarlıq** | 29 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | İstənilən ixtisas üzrə ən azı 11 illik və ya kollec musiqi təhsili |
| *Musiqişünaslıq* | **Musiqişünaslıq** | 30 | **1. Harmoniya və solfecio (şifahi)**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | İstənilən ixtisas üzrə ən azı 11 illik və ya kollec musiqi təhsili |
| *İnstrumental ifaçılıq: fortepiano, simli: violin,gitara, viola; nəfəs: klarnet, saksofon; zərb alətləri* | **İnstrumental ifa** | 31 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *Musiqi müəllimliyi* | **Musiqi müəllimliyi** | 32 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | məqbul | 5 illik musiqi təhsili |
| *Populyar musiqi və caz ifaçılığı (fortepiano, violin, akkordeon, klarnet, saksofon, fleyta, qoboy, truba, gitara, tar, kamança, balaban, qanun, zərb alətləri)* | **Populyar musiqi və caz ifaçılığı (alətlər üzrə)** | 36 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | bal | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *İnstrumental ifaçılıq: fortepiano* | **Fortepiano (NDU)** | 71 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | 5 illik musiqi təhsili |
| *İnstrumental ifaçılıq: simli: violin, viola, violonçel, kontrabas; nəfəs: fleyta, klarnet, saksofon, truba, trombon, qoboy, valtorna, faqot, tuba, zərb alətləri* | **Orkestr alətləri (NDU)** | 72 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *Musiqişünaslıq* | **Musiqişünaslıq (NDU)** | 73 | **1. Harmoniya və solfecio (şifahi)**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | İstənilən ixtisas üzrə ən azı 5 illik musiqi təhsili |
| *İnstrumental ifaçılıq: tar, kamança, qarmon, balaban, qanun, nağara, saz* | **Xalq çalğı alətləri (NDU)** | 74 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | Uyğun alət üzrə 5 illik musiqi təhsili |
| *Dirijorluq (sahələr üzrə)* | **Dirijorluq (NDU)** | 75 | **1. İxtisas**<br>**2. Harmoniya və solfecio**<br>**3. Musiqi ədəbiyyatı** | | 5 illik musiqi təhsili |
| *Vokal sənəti (sahələr üzrə)* | **Xanəndəli (NDU)** | 95 | **1. İxtisas**<br>**2. Musiqi nəzəriyyəsi və solfecio** | | |
| | **Milli vokal (NDU)** | 96 | | | |
| **TEATR, KİNO VƏ XOREOQRAFİYA SƏNƏTİ** | | | | | |
| *Aktyor sənəti* | **Aktyor sənəti** | 50 | **imtahan** – ixtisas<br>*imtahanının hissələri*<br>- aktyor sənəti | bal | 2024-cü il iyulun 1-dək 25 yaşı tamam olmayan abituriyentlər |

| İstiqamətlər üzrə ixtisaslar | Komissiyalar | | Qabiliyyət imtahanları | Qiy-mətlən-dirmə | Qeydiyyat zamanı nəzərə alınan minimum şərtlər |
|---|---|---|---|---|---|
| | ad | kod | | | |
| | | | - musiqi duyumu və ritmika | | qeydiyyatdan keçə bilərlər |
| *Aktyor sənəti* | **Aktyor sənəti (NDU)** | 80 | **imtahan** – ixtisas<br>*imtahanının hissələri*<br>- aktyor sənəti<br>- musiqi duyumu və ritmika | | |
| *Rejissorluq* | **Rejissorluq** | 51 | **imtahan** – ixtisas<br>*imtahanının hissələri*<br>- rejissor sənəti<br>- aktyor ifaçılığı | | |
| *Operator sənəti* | **Operator sənəti** | 52 | **imtahan** – ixtisas<br>*imtahanının hissələri*<br>- müsahibə<br>- təcrübi yaradıcılıq | | |
| *Xoreoqrafiya sənəti (sahələr üzrə)* | **Xoreoqrafiya** | 53 | **imtahan** – ixtisas[2] | | *Abituriyentin çəkisi, boyu, onurğa sütunu, ürəyi, görmə qabiliyyəti haqqında tibbi arayış* |
| **BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN** | | | | | |
| *Məşqçilik* | **Məşqçilik** | 61 | **imtahan** – ixtisas | bal | 086U formalı tibbi arayış(sağlamdır və yararlıdır qeydi ilə) |
| *Ümumi fiziki hazırlıq* | **Ümumi Fiziki Hazırlıq** | 62 | **imtahan – ÜFH (Ümumi fiziki hazırlıq)** | Məqbul | |
| *Adaptiv bədən tərbiyəsi* | | 62 | | | |
| *Kütləvi sağlamlaşdırıcı idman* | | 62 | | | |
| *Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi* | *Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi* | 63 | **imtahan – ÜFH (Ümumi fiziki hazırlıq)** | | |

63-cü komissiya üzrə abituriyentin ümumi fiziki hazırlıq imtahanından aldığı müsbət qiymət 6401 komissiyaya da şamil edilir.

10, 11, 12-ci komissiyalar üzrə rəsm fənni imtahanının məzmunu eynidir. Buna görə də abituriyentin rəsm fənni üzrə bu üç komissiyanın hər hansı birində aldığı müsbət qiymət digər iki komissiyanın da bu fənn üzrə imtahanlarına şamil edilir.

14 və 15-ci komissiyalar üzrə rəsm fənni imtahanının məzmunu eyni olduğuna görə abituriyentin bir komissiyadan aldığı müsbət qiymət digər komissiyaya da şamil edilir.

14 və 15-ci komissiyalar üzrə abituriyentin rəsm fənnindən aldığı 6 bal və daha yuxarı qiymət 13-cü komissiyaya da şamil edilir.

10 və 11-ci komissiyalar üzrə rəngkarlıq fənnindən abituriyentin bir komissiyadan aldığı müsbət qiymət digər komissiyaya da şamil edilir.

---

[3] Xoreoqrafiya sənəti ixtisasının balet pedaqogikası, milli rəqs və modern rəqs sahələri üzrə qabiliyyət imtahanı "İfaçılıq", baletmeyster sahəsi üzrə "Baletmeyster sənəti", rəqs müəllimliyi sahəsi üzrə isə "Kompozisiya və improvizasiya" fənnindən keçiriləcəkdir.

## Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasların komissiyalar üzrə bölgüsü və qeydiyyat zamanı nəzərə alınan şərtlər

| İxtisas | YQYK | | Qabiliyyət imtahanları |
|---|---|---|---|
| | ad | kod | |
| **TƏSVİRİ SƏNƏT** | | | |
| ***Bakı şəhəri*** | | | |
| Rəngkarlıq (sahələr üzrə)<br>Dekorativ tətbiqi sənət (sahələr üzrə)<br>Teatr dekor sənəti<br>Dizayn (sahələr üzrə)<br>Qrafika üzrə texnik | Təsviri sənət (ADRA-nəzdində İncəsənət kolleci) | 1601 | 1. Rəsm<br>2. Rəngkarlıq |
| Dekorativ tətbiqi sənət (sahələr üzrə)<br>Dizayn (sahələr üzrə)<br>Rəngkarlıq (sahələr üzrə) | Təsviri sənət (Bakı) | 1602 | 1. Rəsm |
| Heykəltəraşlıq | Heykəltəraşlıq | 1701 | 1. Rəsm<br>2. Yapma |
| Dizayn (sahələr üzrə) | Təsviri sənət (Gəncə) | 1604 | 1. Rəsm |
| | Təsviri sənət (Lənkəran) | 1607 | 1. Rəsm |
| **MUSİQİ SƏNƏTİ** | | | |
| ***Bakı şəhəri*** | | | |
| Aşıq sənəti | Aşıq sənəti | 4101 | **imtahan –** ixtisas |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 4301 | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | Xalq çalğı alətləri ifaçılığı | 4401 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 4501 | |
| Vokal sənəti (sahələr üzrə) | Milli vokal | 4601 | |
| Vokal sənəti (sahələr üzrə) | Klassik vokal | 4701 | |
| Populyar musiqi və caz ifaçılığı (vokal) | Populyar musiqi və caz ifaçılığı (vokal) | 4801 | |
| Populyar musiqi və caz ifaçılığı (alətlər üzrə) | Populyar musiqi və caz ifaçılığı (alətlər üzrə) | 4901 | |
| ***Gəncə şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 4304 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 4404 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 4504 | |
| | Klassik vokal | 4704 | |
| ***Şəki şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 4305 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 4405 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 4505 | |
| ***Bərdə şəhəri*** | | | |
| Aşıq sənəti | Aşıq sənəti | 4106 | **imtahan –** ixtisas |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 4306 | |
| | Xalq çalğı alətləri ifaçılığı | 4406 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 4506 | |
| | Klassik vokal | 4706 | |
| ***Lənkəran şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 4307 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 4407 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 4507 | |
| **TEATR, KİNO VƏ XOREOQRAFİYA SƏNƏTİ** | | | |
| ***Bakı şəhəri*** | | | |

| İxtisas | YQYK | | Qabiliyyət imtahanları |
|---|---|---|---|
| | ad | kod | |
| Aktyor sənəti | Aktyor sənəti | 5601 | imtahan – ixtisas |
| Bədii yaradıcılıq işi | Bədii yaradıcılıq | 5701 | |
| BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN | | | |
| *Bakı şəhəri* | | | |
| Fiziki tərbiyə müəllimliyi | Fiziki tərbiyə müəllimliyi | 6401 | **imtahan** –ümumi fiziki hazırlıq(ÜFH) |

## Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasların komissiyalar üzrə bölgüsü və qeydiyyat zamanı nəzərə alınan şərtlər

| İxtisas | YQYK | | Qabiliyyət imtahanları |
|---|---|---|---|
| | ad | kod | |
| **TƏSVİRİ SƏNƏT** | | | |
| ***Bakı şəhəri*** | | | |
| Rəngkarlıq (sahələr üzrə)<br>Dekorativ tətbiqi sənət (sahələr üzrə)<br>Teatr dekor sənəti<br>Dizayn (sahələr üzrə)<br>Qrafika üzrə texnik | Təsviri sənət (ADRA nəzdində İncəsənət Kolleci) | 210 | **imtahan –** rəsm |
| Rəngkarlıq (sahələr üzrə)<br>Dekorativ tətbiqi sənət (sahələr üzrə)<br>Dizayn (sahələr üzrə) | Təsviri sənət (Bakı-digər müəssisələr) | 211 | **imtahan –** rəsm |
| Heykəltəraşlıq | Heykəltəraşlıq | 212 | **imtahan –** rəsm |
| ***Naxçıvan şəhəri*** | | | |
| Rəngkarlıq (sahələr üzrə) | Təsviri sənət | 311 | **imtahan –** rəsm |
| ***Gəncə şəhəri*** | | | |
| Dizayn (sahələr üzrə) | Təsviri sənət | 411 | **imtahan –** rəsm |
| ***Şəki şəhəri*** | | | |
| Rəngkarlıq (rəssam) | Təsviri sənət | 511 | **imtahan –** rəsm |
| ***Lənkəran şəhəri*** | | | |
| Dizayn (sahələr üzrə) | Təsviri sənət | 711 | **imtahan –** rəsm |
| **MUSİQİ SƏNƏTİ** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 221 | **imtahan –** ixtisas |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | Xalq çalğı alətləri ifaçılığı | 222 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 223 | |
| Vokal sənəti (sahələr üzrə) | Klassik vokal | 224 | |
| Vokal sənəti (sahələr üzrə) | Milli vokal | 225 | |
| Aşıq sənəti | Aşıq sənəti | 227 | |
| Populyar musiqi və caz ifaçılığı (vokal) | Populyar musiqi və caz ifaçılığı (vokal) | 228 | |
| Populyar musiqi və caz ifaçılığı (alətlər üzrə) | Populyar musiqi və caz ifaçılığı (alətlər üzrə) | 229 | |
| ***Naxçıvan şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 321 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 322 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 323 | |
| | Klassik vokal | 324 | |
| Aşıq sənəti | Aşıq sənəti | 327 | |
| ***Gəncə şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 421 | **imtahan –** ixtisas |

| | | | |
|---|---|---|---|
| | Xalq çalğı alətləri ifaçılığı | 422 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 423 | |
| | Klassik vokal | 424 | |
| ***Şəki şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 521 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 522 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 523 | |
| ***Bərdə şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 621 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 622 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 623 | |
| Vokal sənəti (sahələr üzrə) | Klassik vokal | 624 | |
| Aşıq sənəti | Aşıq sənəti | 627 | |
| ***Lənkəran şəhəri*** | | | |
| İnstrumental ifaçılıq (alətlər üzrə) | İnstrumental ifaçılıq | 721 | **imtahan –** ixtisas |
| | Xalq çalğı alətləri ifaçılığı | 722 | |
| Vokal sənəti (sahələr üzrə) | Xanəndəlik | 723 | |
| **TEATR, KİNO VƏ XOREOQRAFİYA SƏNƏTİ** | | | |
| ***Bakı şəhəri*** | | | |
| Aktyor sənəti | Aktyor sənəti | 140 | **imtahan –** ixtisas |
| Bədii yaradıcılıq işi | Bədii yaradıcılıq | 141 | |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | Xoreoqrafiya sənəti (klassik, milli) | 142 | **imtahan –** ifaçılıq (ixtisasa dair diplom və ya şəhadətnamə tələbi var) |
| Rəqs müəllimliyi | Rəqs müəllimliyi | 143 | |
| **Naxçıvan şəhəri** | | | |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | Xoreoqrafiya | 342 | **imtahan –** ixtisas |
| Aktyor sənəti | Aktyor sənəti | 343 | |
| **BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN** | | | |
| Fiziki tərbiyə müəllimliyi | Fiziki tərbiyə və çağırışaqədər hazırlıq müəllimliyi | 152 | **imtahan** – **ÜFH** **(Ümumi fiziki hazırlıq)** |